**Q.S. Süleymanov**
**G. N. Quliyeva, Z.A.Həsənova**

**UOT: 33.005; JEL: P42.**

# Biznes mühiti və onun "Doing business" indikatorları ilə qiymətləndirilməsi

***Xülasə***

*Tədqiqatın məqsədi Azərbaycanın biznes mühitini beynəlxalq meyarlar əsasında təhlil etmək və onun inkişaf imkanlarını araşdırmaqdır. Məqalədə "Doing business" hesabatı üzrə biznesin qiymətləndirilməsi metodologiyası və indikatorları tədqiq olunmuşdur. Eyni zamanda həmin hesabat üzrə Azərbaycanın biznes mühiti digər ölkələrin biznes mühiti ilə müqayisəli təhlil olunmuş və onun inkişafı üçün təkliflər verilmişdir.*

***Açar sözlər:*** *biznes mühiti, "doing business", innovasiya, investisiya, müqavilələrin icrası*

## Giriş

Tədqiqatlar göstərir ki, qlobal miqyasda biznes mühiti kiçik, orta və iri şirkətlərin imkanlarının müəyyən olunmasına kömək edir və onun ətraflı tədqiqi ilə müəssisələrin fəaliyyət göstəricilərini daha yaxşılaşdırmaq olar. Ümumi məvhumda "biznes mühiti" anlayışı müəssisəyə təsir edən daxili və xarici amillərin cəmindən ibarətdir. Xüsusən özəl sektorun inkişafında və uyğun olaraq, innovativ məhsulların istesalı, məşğulluğun artırılmasında və ümumilkdə sosial vəziyyətin yaxşılaşdırılmasında biznes mühitinin əlverişliliyinin böyük əhəmiyyəti vardır. Bunu əsaslandırmaq üçün müxtəlif ölkələrin bu sahədə mövcud vəziyyətini təhlil etmək və müqayisəli qiymətləndirmək üçün Dünya bankı tərəfindən hazırlanan "Doing business" (Biznesin həyata keçirilməsi) hesabatını tədqiq etmək kifayətdir. Məhz bu zəruriyyətdən irəli gələrək, ölkəmizdə də biznes sahələrinin inkişafı dövlətin strateji hədəflərindəndir. Bunun nəticəsi olaraq Azərbaycanda biznes mühitinin səmərəliliyinin və qlobal miqyasda rəqabətqabiliyyətinin artırılması üçün 2018-ci ildə qəbul olunmuş qərara görə "Doing business" hesabatı üzrə ölkəmizin mövcud vəziyyətinin yaxşılaşdırılması üçün tədbirlər planının işlənilib hazırlanması aktual məsələ kimi qarşıya qoyulmuşdur.



**"Doing business" (biznesin həyata keçirilməsi) hesabatı və "Biznes mühiti"nin qiymətləndirilməsi metodologiyası**

Qeyd etmək lazımdır ki, "Doing business" hesabatları "biznes mühiti"nin yaxşılaşdırılması, tənzimlənməsi və müəsssilərin təsis olunmasına təsir göstərən amillərin müəyyən edilməsinə əsaslanır [2]. İlk hesabat 2003-cü ildə nəşr olunub və 5 indikator üzrə 133 dövlətin iqtisadiyyatını əhatə etmişdir. Hazırda isə əsas 10 indikator üzrə 190 ölkənin iqtisadiyyatını əhatə edir. Hal-hazırda dünyada "biznes mühiti"nin qiymətləndirilməsi indikatorları aşağıdakı kimi qruplaşdırılmışdır: Müəssisənin qeydiyyatdan keçirilməsi; Tikintiyə icazələrin alınması; Elektrik təchizatı şəbəkələrinə qoşulma; Əmlakın qeydiyyatı; Kreditlərin alınması; Kiçik investorların maraqlarının qorunması; Vergilərin ödənişi; Beynəlxalq ticarət; Müqavilələrin icrasının təmin edilməsi; Ödəyə bilməmə probleminin həlli.

Ümumilikdə biznes mühitinin müxtəlif ölkələr üçün yaxşılaşdırılması imkanları müxtəlif göstəricilərə görə qiymətləndirilir və bu "Doing business" hesabatının reytinq cədvəlində öz əksini tapır. Hesablamalar biznesin aparılması üçün əlverişli şəraitin göstəricisi 0-dan 100-ə

*©Q.S.Süleymanov i.e.d.,prof., G. N. Quliyeva, Z.A.Həsənova Azərbaycan Dövlət Neft və Sənaye Universiteti*
*©AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

qədər olan miqyasla ölçülür, burada 0 ən pis,100 ən yaxşı nəticədir. Bu göstərici 190 ölkənin iqtisadiyyatını müqayisə etdiyindən 1-190 arasında sıralanır. Tədqiqat aparılan ölkələr arasında biznes üzrə tənzimləyici mühiti müqayisə etmək üçün lazimi məlumatlar toplanılır və təhlil edilir. Eyni zamanda bu hesabatlar məlumatları müxtəlif tədqiqatçılar üçün məlumat funksiyası daşıyır. Hesabatların aparılmasında dünyanın 7000-dən çox mütəxəssisi iştirak edir- biznes məsləhətçilər, hüquqşünaslar, iqtisadçılar, hökumət nümayəndələri, eləcə də metodoloji və ekspert yardımı göstərən müxtəlif ölkələrin aparıcı alimləri. Reytinqlərin hazırlanmasına dair məlumatların aktuallığı maliyyə ili ərzində (30 iyun sona çatır) aktualliğını qoruyur və hər il yenilənir. Reytinqlərin hesablanmasında əsasən biznes şəraiti tədqiq olunacaq ölkənin ən böyük iqtisadi və biznes mərkəzi seçilir. Azərbaycan üçün bu mərkəz Bakıdır. Beləliklə, dövlətlərin reytinq göstəricisi onların böyük biznes mərkəzi sayılan ərazilərə görə hesablanır. Biznesin mühitinin əlverişliliyi tədqiq olunan 10 indikator üzrə aşağıdakı meyarlara görə hesablanır:

- Müəssisənin qeydiyyatdan keçirilməsi: prosedurlar (miqdar); müddət (gün); xərc (adambaşına düşən gəlirdən%); minimum səhm kapitalı (adambaşına düşən gəlirdən%). "Müəssisənin qeydiyyatdan keçirilməsi " bir şirkətin qeydiyyatı üçün lazım olan prosedurların ümumi sayını, eləcə də özəl işgüzar fəaliyyətə başlamaq üçün sahibkarın xərclərini, vaxtını və maliyyə ehtiyatını əks etdirir.
- Tikintiyə icazələrin alınması: prosedurlar (miqdar); müddət (gün); xərc (adambaşına düşən gəlirdən%); İkinci göstərici "Tikintiyə icazələrin alınması", kiçik bir anbar qurmaq istəyən bir müəssisə tərəfindən təşkil ediləcək prosedurların sayını, onların dəyəri və şərtlərini əks etdirir.
- Elektrik təchizatı şəbəkələrinə qoşulma:prosedurlar (miqdar); müddət (gün); xərc (adambaşına düşən gəlirdən%). Elektrik təchizatı sisteminə qoşulmaq istəyən şirkət tərəfindən həyata keçirilməsi nəzərdə tutulan prosedurların sayı, həmçinin onların dəyəri və onlara sərf olunan vaxtın qiymətləndirilməsinə əsaslanır.
- Əmlakın qeydiyyatı:prosedurlar (miqdar); müddət (gün); xərc (adambaşına düşən gəlirdən%). "Əmlakın qeydiyyatı" üçün kommersiya daşınmaz əmlak əldə etdikdən sonra şirkət tərəfindən həyata keçirilməli olan işlərin dəyəri, müddəti və prosedurların sayını göstərir.
- Kreditlərin alınması: qanuni hüquqların effektivliyinin göstəricisi;kredit məlumatlarının dərinliyi indeksi. "Kreditlərin alınması" göstəricisi kreditin əldə olunması haqqında zəruri informasiya bazasının təşkili, kreditorların və borcalanların qanuni hüquqlarının ifadəsidir.
- Kiçik investorların maraqlarının qorunması: şəffaflıq indeksi; direktorun məsuliyyət indeksi; səhmdarlar tərəfindən iddianın verilməsi ehtimalı indeksi. "Kiçik investorların maraqlarının qorunması " göstəricisi: əməliyyatların şəffaflığı (şəffaflıq indeksi); şəxsi mənfəət üçün vəzifədən istifadə etmək meyli (direktorun məsuliyyət indeksi); səhmdarlar tərəfindən verilən şikayətlərin ödənilməsinin asanlığı indeksi ilə müəyyən olunur.
- Vergilərin ödənişi: ödənişlər (məbləğ); vaxt (saat); vergi dərəcəsi (%). "Vergilərin ödənişi" vergilərin məbləğini və orta illik müəssisənin müvafiq ilində iştirak edən ödəmə və ya saxlama vaxtını əks etdirir.
- Beynəlxalq ticarət: ixrac üçün sənədlər (miqdar); ixrac üçün vaxt (gün); ixrac dəyəri (hər konteyner üçün ABŞ dolları); idxal sənədləri (miqdar); idxal etmək vaxtı (gün); idxal dəyəri (konteyner üçün ABŞ dolları). "Beynəlxalq ticarət" göstəricisi idxal və ixrac üçün nəzərdə tutulan məhsulların bir hissəsi üçün lazım olan sənədlərin ümumi sayını, malın idxal / ixrac olunduğu vaxt və xərcləri əks etdirir.



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

- Müqavilələrin icrasının təmin edilməsi:prosedurlar (miqdar); müddət (gün); xərc (adambaşına düşən gəlirdən%). "Müqavilələrin icrasının təmin edilməsi "göstəricisi müqavilələrin şərtlərinə riayət etmək üçün icra tədbirlərinin effektivliyini əks etdiri.: Bunu ödəmə mübahisələrinin inkişafı nəzərə alınmaqla; məhkəməyə iddia ərizəsi verildikdən sonra şirkətin çəkdiyi vaxt, xərclər və prosedurları öyrənməklə qiymətləndirmək olar.
- Ödəyə bilməmə probleminin həlli: vaxt (il ərzində); dəyər (adambaşına düşən gəlirdən%); toplama dərəcəsi (dollar başına sent). "Ödəyə bilməmə probleminin həlli " göstəricisi şirkətin iflas zamanı çəkdiyi vaxt və maliyyə xərclərini, habelə ödənişsiz bir şirkətdən alınan dollar başına bir sent ilə ifadə olunan borcların yığım dərəcəsini əks etdirir.

Bütün bu göstəricilər üzrə yüksək reytinq göstəricisinə malik ölkə biznes mühitinin əlverişliliyi ilə seçilir. Ölkəmiz son illərdə bu göstərici üzrə bir çox ölkəni qabaqlaya bilib. Bunu dövlət səviyyəsində iqtisadiyyatda aparılan islahatların nəticəsi kimi qiymətləndirə bilərik. Lakin bu tədbirlərin daha səmərəli olması üçün mövcud iqtisadi vəziyyətin mütəmadi təhlil olunması vacibdir.

**Azərbaycanda bisnes əlverişliliyinin "Doing business" hesabatı üzrə mövqeyinin təhlili və bu sahədə beynəlxalq situasiya**

Araşdırmalar göstərir ki, Azərbaycan biznes mühitin formalaşması üzrə son illər ən çox islahatlar keçirən ölkələrdən biridir. Bu islahatar daha çox vergi sisteminin, ölkə iqtisadiyyatının müasir bazar sistemində yerinin təmin olunması, bu sahədə norma və qaydaların tənzimlənməsi və biznes mühitinin əlverişliliyinin artırılmasına yönəlib. Bütün bu islahatlar nəticəsində ölkənin beynəlxalq inteqrasiya qabiliyyəti artmışdır və "Doing business" hesabatı üzrə reytinq cədvəlindəki yeri xeyli yaxşılaşmışdır. Həmin hesabata görə Azərbaycanın 10 göstərici üzrə reytinq cədvəlində yerini aşağıdakı cədvəldə görə bilərik (Cədvəl 1).



Cədvəl 1-dən göründüyü kimi Azərbaycan 2018-ci ildə 190 ölkə iqtisadiyyatı arasında qlobal müqayisədə 25-ci yeri tutur. Bu sıralamada ölkəmizin bir çox ölkələri qabaqlaması uğurlu iqtisadi siyasətin nəticəsidir. Ümumilikdə bu göstəricilər üzrə qabaqcıl ölkələrin reytinq sıralaması aşağıdakı kimidir. Azərbaycan "biznesə başlamaq" və "kiçik investorların maraqlarının müdafiəsi" göstəriciləri üzrə ilk 10 ölkədən biridir. Bu onu göstərir ki, ölkəmizdə ötən illərdə biznes sahələrində innovativliyə böyük önəm verilib. Digər tərəfdən sahibkarların yeni işə başlaması üçün əlverişli şərait hazırlanıb və dövlət daim bu məsələni diqqət mərkəzində saxlayır. Sahibkarlığın inkişafı öz növbəsində ölkəmizin beynəlxalq layihələrdə iştirakını və yeni iş yerlərinin açılmasını dəstəkləyir. Bütün bunlar onu deməyə əsas verir ki,"Biznes mühiti" əlverişli olan "biznes qabaqcıl"ı kimi tanınan ölkələrin təcrübəsinin tədqiqi əhəmiyyətlidir. Bu ölkələrin bir neçəsinin təcrübəsini təhlil edək. Yeni Zelandiya - biznes mühitinin yüksək əlverişliliyi ilə seçilən və 2019-cu il "Doing business" hesabatının inkişaf meyarı olaraq seçdiyi 10 göstəricinin 3-ü üzrə ilk pillədə, ümumilikdə qlobal miqyasda biznesin həyata keçirilməsi üzrə lider olan ölkə biznesi aşağıdakı keyfiyyətləri ilə seçilir [5]: Sabitlik; Mərkəzləşdirilmiş və yüksək beynəlxalq inteqrasiya; Yüksək keyfiyyət, aşağı qiymət; Geniş istehsal potensialı; Davamlılıq; İnnovativ yeniliklərə daha çox diqqət ayrılır; İnvestorlar üçün geniş imkanlar. Çin- biznes qabaqcıllarından biridir. Bunun əsas səbəblərindən biri də Çinin bir çox xarici ölkələrdən investisiya cəlb etməsidir. Bununla yanaşı, geniş istehsal imkanları burada müəssisələrin çoxalmasına səbəb olur. Dövlət daima biznes mühitinin yaxşılaşması üçün tədbirlər həyata keçirir. Gürcüstan - Azərbaycanla daha yaxın əlaqələri olan və biznesin həyata keçirilməsi reytinqinə görə ilk onluqdadır. Ötən il ölkədə 50-dən çox islahat həyata keçirilmişdir. İslahatlar daha çox tikintiyə icazələrin

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

verilməsi və beynəlxalq ticarətin asanlaşdırılmasına yönəlib. Bunlarla yanaşı Gürcüstanda aşağıdakı islahatlar keçirilib[6]: Biznesə başlamaq üçün qeydiyyat prosedurları asanlaşdırılıb; Vergi haqqında qanunları sadələşdirilərək, vergi ödəmələri asanlaşdırılmışdır; Məhkəmənin avtomatlaşdırılması, elektronik ödənişlərin qəbul olunması müqavilələrin yerinə yetirilməsi ilə bağlı məsələləri asanlaşdırmışdır.

**Cədvəl 1.**

**Azərbaycanda "biznes mühiti"nin qiymətləndirilməsi üzrə "Doing business" hesabatı (2019)**

| Göstəricilər | DB 2019 reytinq | DB 2018 göstərici | DB 2019 göstərici | Göstəricinin dəyişməsi (%) |
|---|---|---|---|---|
| Qlobal | 25 | 78.64 | 71.54 | 7.10 |
| Müəssisənin qeydiyyatdan keçirilməsi | 9 | 96.14 | 96.11 | 0.03 |
| Tikintiyə icazələrin verilməsi | 61 | 73.11 | 60.48 | 12.63 |
| Elektrik təchizatı şəbəkələrinə qoşulma | 74 | 77.27 | 69.30 | 7.97 |
| Əmlakın qeydiyyatı | 17 | 84.63 | 83.75 | 0.88 |
| Kreditlərin alınması | 22 | 80.00 | 40.00 | 40.00 |
| Kiçik investorların maraqlarının qorunması | 2 | 81.67 | 76.67 | 5.00 |
| Vergilərin ödənişi | 28 | 85.23 | 84.21 | 1.02 |
| Beynəlxalq ticarət | 84 | 77.04 | 75.12 | 1.92 |
| Müqavilələrin icrasının təmin edilməsi | 40 | 67.51 | 67.51 | .. |
| Ödəyə bilməmə probleminin həlli | 45 | 63.79 | 62.27 | 1.52 |

Mənbə: russian.doingbusiness.org



Qeyd olunan ölkələrin və ölkəmizin biznes mühitinin təhlili göstərir ki, sahənin inkişafı üçün dövlətin həyata keçirdiyi çoxsaylı islahatların xüsusi əhəmiyyəti vardır. Bununla yanaşı, biznes fəaliyyətinin həyata keçirilməsi üçün qeydiyyat prosesi və digər əməliyyatların qanunlarla tənzimlənməsi və asanlaşdırılması məqsədəuyğundur. Bu milli iqtisadiyyatda xarici investisiyanın həcm payının çoxalmasına da səbəb ola bilər. Cədvəl 1-dən görünür ki, "Doing business" hesabatının əsas göstəricilərindən biri də "müqavilələrin icrası" indikatorudur. Bu göstərici üzrə ölkəmiz 2019-cü ildə 190 ölkə arasında 40-ci yerdədir. Bu göstəricinin yaxşılaşdırılması da sahibkarların bines fəaliyyətini həyata keçirməsində stimullaşdırıcı rol oynayar.

**"Müqavilələrin icrası" indikatoru üzrə biznes mühitin qiymətləndirilməsi**

Müqavilələrin icrası göstəricisi birinci instansiya məhkəməsində kommersiya mübahisələrinin həlli və məhkəmə proseslərinin keyfiyyəti göstəricisi kimi bir sıra yaxşı təcrübələri ilə seçilən, məhkəmə sistemində keyfiyyətə və səmərəliliyə təşviq edən iqtisadiyyatların qiymətləndirilməsi üçün vaxt və xərclərə əsasən müəyyən edilir [2,3]. İqtisadi inkişaf və davamlı artım üçün səmərəli müqavilə qaydası vacibdir. İqtisadi və sosial irəliləyiş qanunun aliliyinə hörmət və hüquqların səmərəli qorunması olmadan həyata keçirilə bilməz. Müəyyən müddətdə işlərin həllinə yönələn və ictimaiyyət üçün proqnozlaşdırılan və əlçatan olan yaxşı fəaliyyət göstərən mühakiməni tələb edir. Məhkəmələr müqavilə öhdəliklərini səmərəli şəkildə tətbiq edə biləcək daha effektli mühakiməyə sahib iqtisadiyyatlar daha inkişaf etmiş kredit bazarlarına və ümumilikdə daha yüksək inkişaf səviyyəsinə sahibdirlər. Daha güclü məhkəmə kiçik firmaların daha sürətli böyüməsi ilə

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

əlaqəlidir. Ümumilikdə, məhkəmə sisteminin səmərəliliyinin artırılması biznes mühitini yaxşılaşdırmaq, yeniliklərə təşviq etmək, xarici investisiyaların cəlb edilməsi və vergi daxilolmalarının təhlükəsizliyini təmin edə bilər.

Argentina və Braziliyanın müxtəlif bölgələrində məhkəmənin səmərəliliyinin tədqiqi nəticəsində məlum olub ki, daha səmərəli məhkəmələrin mövcud olduğu ərazilərdə yerləşən firmalar daha çox kredit əldəetmə imkanı vardır. Meksikada aparılan araşdırmalara görə daha yaxşı məhkəmə sistemi olan dövlətlərin daha böyük və daha səmərəli firmalara malikdir. Effektiv məhkəmələr firmaların üzləşdiyi riskləri azaldır və investisiya cəlbediciliyini artırır. Braziliya, Peru və Filippin şirkətləri məhkəmələrə nə qədər çox etibar etsələr, o qədər çox investisiya yatırmağa hazır olduqlarını qeyd edirlər. Məhkəmələrin səmərəliliyi ayrı-ayrı ölkələrə görə fərqlidir. Məsələn: məhkəmələr vasitəsilə müqavilə yerinə yetirilməsi Sinqapur, Yeni Zelandiya və Ruandada 10 aydan az vaxt tələb etsə də, Banqladeş və Hindistanda dörd il çəkə bilər. Bu sahədə yaxşı təcrübələrə aiddir: İxtisaslaşdırılmış kommersiya məhkəməsi, bölmə və hakimin olması; Kiçik iddialar üçün kiçik iddia məhkəmələri və ya sadələşdirilmiş prosedurların təqdim edilməsi; Məhkəmənin avtomatlaşdırılması; Kompüterləşmə və məhkəmə səmərəliliyi; Mübahisələrin həlli üçün alternativ vasitələrdən istifadə; İşin idarə olunması sisteminin genişləndirilməsi. Ümumilikdə müqavilələrin icrası göstəricisi üzrə qabaqcıl ölkələrin “Doing business” hesbatına görə reytinq cədvəlindəki yeri aşağıdakı cədvəldə əks olunub (Cədvəl 2).

**Cədvəl 2.**

**Müqavilələrin icrası üzrə ölkələrin reytinq cədvəli (2018)**

| Ölkələr | Müqavilələrin qiymətləndirilməsi balı | Müqavilələri qiymətləndirilməsi reytinqi | Vaxt (gün) | Xərc (iddia dəyərindən%) |
|---|---|---|---|---|
| **Sinqapur** | 84.53 | 1 | 164 | 25.8 |
| **Koreya Respublikası** | 84.15 | 2 | 290 | 12.7 |
| **Norveç** | 81.27 | 3 | 400 | 9.9 |
| **Qazaxstan** | 81.25 | 4 | 370 | 22.0 |
| **Avstraliya** | 79.00 | 5 | 402 | 23.2 |
| **Çin** | 78.97 | 6 | 496.3 | 16.2 |
| **Litva** | 78.80 | 7 | 370 | 23.6 |
| **Gürcüstan** | 76.90 | 8 | 285 | 25.0 |
| **BƏƏ** | 75.88 | 9 | 445 | 21.0 |
| **Avstriya** | 75.49 | 10 | 397 | 20.6 |
| **Azərbaycan** | 67.51 | 40 | 277 | 18.5 |

Mənbə: russian.doingbusiness.org

Cədvəl 2-dən də göründüyü kimi ölkələr üzrə müqavilələrin icrası göstəricisinin ölkələr üzrə müqayisəli təhlilini aparmaq üçün vaxt və xərc göstəricisindən istifadə olunur. Onların həyata keçirilməsi üçün daha az vaxt və xərc sərf edən ölkələr bu sahədə daha təcrübəli və ixtisaslaşmış ölkələrdir. Bu göstəricilərin ölkələr üzrə vəziyyətini aşağıdakı diaqramdan görə bilərik (Diaqram 1). Müqavilələrin icrasının səmərəli həyata keçirilməsi üçün qabaqcıl ölkələr fərqli üsullarla müqavilələr tərtib edir və ya fəqli şərtlərə əsaslanırlar. Çində müqavilələrin təqbiqi üçün aşağıdakı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur[4]: Müqavilələr Çin dilində yazılmalıdır; Müqavilə lokallaşdırılmalıdır; Müqavilənin şərtləri dəqiq əks olunmalıdır. Müqavilələrin icrası üzrə reytinqdə 1-ci olan Sinqapur ən işgüzar və mülayim tənzimləməyə malik ölkə kimi tanınır. Mübahisələrin həll olunmasına Sinqapurda toplanmış son məlumatlara görə (2018-ci il may) 164 gün sərf olunub ki, bu da dünya ölkələri işərisində ən qısa zaman deməkdir. Xərclər isə iddia dəyərinin təqribən 26%-ini təşkil edib. Sinqapurda mübahisələrin həlli üçün ixtisaslaşmış qurumların olması (məsələn, ixtisaslaşmış

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

məhkəmələr), effektiv idarə etmə sistemivə məhkəmə sisteminin müasir və avtomatlaşdırılmış olması ilə və iddiaçılar iddia ərizələrini online təqdim edə, məhkəmə ödənişlərini onlayn ödəyə və elektron çağırışlara elektron xidmət göstərə bilərlər.

**Diaqram 1.**

**Ölkələr üzrə müqavilələrin icrasına sərf olunan zaman və xərc göstəricisi**




Mənbə: russian.doingbusiness.org

Azərbaycan müqavilələrin icrası göstəricisi üzrə reyqtinq cədvəlində 40-cı yerdə dayanır. Müqavilələrin yerinə yetirilməsin 277 gün sərf olunur. Xərclər iddia dəyərinin təqribən 18,5% -ini təşkil edib (2019-cu il üçün iddia dəyəri-11568 man.). Məhkəmə əməliyyatlarının elektronlaşdırılması və avtomatlaşdırılması sahəsində çatışmazlıqlar bu sahənin inkişafına maneə olan əsas amillərdəndir. Ümumilikdə ölkəmizdə müqavilələrin icrası göstəricisinin keyfiyyət dərəcəsi "Doing business" hesabatına görə aşağıdakı kimi qiymətləndirilir (Cədvəl 3).



**Cədvəl 3.**

**Azərbaycan respublikası üzrə müqavilələrin icrası göstəricisinin təhlili (2018-ci il üzrə)**

| | Göstərici |
|---|---|
| **Vaxt (gün)** | **277** |
| Qeydiyyat və xidmət | 27 |
| Məhkəmə prosesi və qərar | 160 |
| Məhkəmənin icrası | 90 |
| **Xərc (iddia dəyərindən%)** | **18.5** |
| Müvəkkil xərcləri | 16.4 |
| Məhkəmə xərcləri | 1.1 |
| İcra haqları | 1 |
| **Məhkəmə proseslərinin keyfiyyəti indeksi (0-18)** | **6.5** |
| Məhkəmə quruluşu və icraatı (-1-5) | 3.0 |
| Prosesin idarə edilməsi (0-6) | 2.0 |
| Məhkəmənin avtomatlaşdırılması (0-4) | 1.5 |
| Alternativ mübahisələrin həlli (0-3) | 0.0 |

Mənbə: russian.doingbusiness.org

Bütün qeyd olunan problemlərin həlli istiqamətində iqtisadi islahatlar və kommunikasiya mərkəzinin verdiyi məlumata görə ölkəmizdə müqavilələrin icrası üçün aşağdakı tədbirlərin həyata keçirilməsi planlaşdırılır [1]:

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

- İnzibati-iqtisad məhkəmələrində onlayn müraciət sisteminin yaradılması və zəruri istifadəçi sayının formalaşdırılması;
- Məhkəmə qərarlarının elektron dərc edilməsi ilə müvafiq tədbirlərin görülməsi;
- Mübahisələrin alternativ həlli metodologiyasının hazırlanması;
- "Doing Business" göstəricilərinə əsasən qanunvericiliyin yenidən təhlil edilməsi və təkmilləşdirilməsi.

Bütün bunlardan belə nəticəyə gəlmək olar ki, müqavilələrin yerinə yetirilməsi prosesinin sadələşdirilməsi biznes fəaliyyətinin həyata keçirilməsi üçün vacibdir. Bunun üçün isə məhkəmə sisteminin avtomatlaşdırılması, ödəmə əməliyyatlarının elektronlaşdırılması və bu kimi tədbirlərin həyata keçirilməsi məqsədəuyğundur.

**Nəticə**

"Biznes mühit" və onun "Doing business" hesabatı üzrə təhlili nəticəsində aşağıdakı nəticə təklifləri söyləmək olar: biznes fəaliyyətin həyata keçirilməsində əsas çətinliklərdən biri sənədləşmələrin mürəkkəbliyidir, bunun üçün qeydiyyat əməliyyatlarının elektronlaşdırılması sürətinin artırılması yaxşı olardı; məhkəmələrin avtomatlaşdırılması bines mühitində meydana gələn mübahisələrin səmərəli həlli üçün vacibdir; investisiyanın cəlb olunması üçün dövlət tərəfindən stimullaşdırıcı tədbirlərin həyata keçirilməsi ölkə binesinin beynəlxalq biznes mühitə inteqrasiyasına kömək edəcəkdir; ölkə şirkətlərinin modernləşdirilməsi və beynəlxalq standartlara cavab verməsi bu müəssisələrə istehlakçıların diqqətini artıracaqdır. Bütün bu tədbirlərin həyata keçirilməsi ölkəmizdə biznesin perspektiv dövrdə beynəlxalq inteqrasiyasını sürətləndirər və ölkəmiz "Doing business" indekatorları üzrə reytinq cədvəlində dünyanın 10 ölkələri sırasına daxil ola bilər.



**Ədəbiyyat**

1. İqtisadi islahatların təhlili və kommunikasiya mərkəzi, "Azərbaycan iqtisadi islahatlar icmalı",2017
2. Dr. V. Basil Hans "Business Environment – Conceptual Framework And Policies", Research Paper E-Issn No : 2455-295x | Volume : 4 | Issue : 3 | March 2018 P. 67-74
3. "Doing Business Reforming to Create Jobs 2018", Washington 2018 International Bank for Reconstruction and Development / The World Bank
4. https://www.hongdaservice.com.enforcing-contracts-in-ch.
5. https://www.nzte.govt.nz/investment-and.../why-invest-here
6. https://www.worldbank.org.doing-business-georgia-has-m
7. russian.doingbusiness.org

***Г.С.Сулейманов, Г.Н.Гулиева, З.А.Гасанова***

***"Бизнес-среды" и её оценка на основе индикаторов "Doing business"***

***Резюме***

*Цель исследования продвижение международной деловой среды в Азербайджане на основе критериев и изучить его возможности развития. В статье описаны методология и индикаторы оценки бизнеса на основе отчета «Doing business». В то же время, согласно данному отчету, бизнес-среда Азербайджана была сравнительно проанализирована с бизнес-средой других стран, и были даны предложения по ее развитию.*

***Ключевые слова:*** *бизнес-среда, ведение бизнеса, инновации, инвестиции, исполнение контрактов*

© *AMEA İqtisadiyyat İnstitutu*
© *www.economics.com.az*

**G.S.Suleymanov, G.N.Guliyeva, Z.A.Hasanova**

**"Busıness envıronment" and ıt's "Doıng busıness" ındıcators**

**Summary**

*The purpose of the study is to promote the international business environment in Azerbaijan based on the criteria and explore its development opportunities.The article describes the methodology and indicators of business valuation based on the Doing Business report. At the same time, according to this report, Azerbaijan's business environment has been comparatively analyzed by the business environment of other countries and has been offered proposals for its development.*

***Key words:*** *business environment, "doing business", innovation, investment, contract execution.*

***Elmi redaktor: i.f.d., dos. Y.Məmmədov***
***Daxil olub: 24.08.2019.***
***Çapa qəbul olunub: 28.08.2019.***



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az